*https://doi.org/10.30546/114578.2025.9.1036*

# SEYİD ƏZİM ŞİRVANİ İRSİNDƏ PEDAQOJİ FİKİR VƏ ELM

**Pərvanə Rzayeva**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı*
*https://ORCİD.org/ 0000-0003-4080-9480*
*pervane.rzayeva@quba.adpu.edu.az*

**Xülasə**

Məqalədə XIX əsr Azərbaycan maarifçiliyinin görkəmli nümayəndəsi Seyid Əzim Şirvaninin pedaqoji baxışları araşdırılır. Tədqiqatın məqsədi şairin şeirlərində ifadə olunan pedaqoji ideyaları sistemləşdirmək və onların müasir pedaqogika üçün əhəmiyyətini göstərməkdir. Analiz zamanı "Həsən bəy Məlikova (Ey Həsən bəy, müəllimi-dana)", "Möhsünə cavab" və "Məsnəvi – Oğluna nəsihət (Mircəfərə)" əsərləri əsas mənbə kimi götürülmüşdür.

Şirvani savadsızlığı cəmiyyətin ən böyük bəlası hesab etmiş, elm və maarifi tərəqqinin açarı kimi təqdim etmişdir. Onun pedaqoji görüşlərində tərbiyənin universallığı, elm və tərbiyənin vəhdəti, müəllim və məktəbin ictimai rolu, eləcə də dillərin öyrənilməsinə və multikultural dəyərlərə xüsusi diqqət çəkilir. Bu ideyalar XIX əsr Azərbaycan cəmiyyəti üçün böyük əhəmiyyət kəsb etməklə yanaşı, müasir təhsil sistemində də aktual olaraq qalır.

**Açar sözlər:** Seyid Əzim Şirvani, pedaqoji fikir, maarifçilik, elm və savad, tərbiyə, multikulturalizm, Azərbaycan pedaqoji irsi.

# PEDAGOGICAL THOUGHT AND SCIENCE IN THE HERITAGE OF SEYID AZIM SHIRVANI

**Parvana Rzayeva**
*Azerbaijan State Pedagogical University, Guba Branch*

**Abstract**

This article explores the pedagogical views of Seyid Azim Shirvani, a prominent representative of 19th-century Azerbaijani Enlightenment. The aim of the research is to systematize the pedagogical ideas expressed in the poet's works and to highlight their significance for modern pedagogy. The analysis primarily focuses on the works "Həsən bəy Məlikova (Ey Həsən bəy, müəllimi-

dana) ("To Hasan bey Melikov (Oh Hasan bey, the wise teacher”), “Möhsünə cavab” ("Answer to Mohsun") and the Məsnəvi – Oğluna nəsihət (Mircəfərə)” ("Masnavi – Advice to His Son (To Mirjafar)")

Shirvani considered illiteracy to be the greatest calamity of society and presented science and education as the key to progress. His pedagogical views emphasize the universality of upbringing, the unity of education and moral development, the social role of teachers and schools, as well as the importance of language learning and multicultural values. These ideas were highly significant for 19th-century Azerbaijani society and remain relevant in today’s educational system.

**Key words**: Seyid Azim Shirvani, pedagogical thought, enlightenment, knowledge and literacy, upbringing, multiculturalism, Azerbaijani pedagogical heritage.

## ПЕДАГОГИЧЕСКАЯ МЫСЛЬ И НАУКА В НАСЛЕДИИ СЕЙИДА АЗИМА ШИРВАНИ

**Парвана Рзаева**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В статье рассматриваются педагогические взгляды видного представителя азербайджанского просветительства XIX века Сеида Азима Ширвани. Цель исследования – систематизировать педагогические идеи, выраженные в стихах поэта, и показать их значение для современной педагогики. При анализе в качестве основных источников были взяты произведения «Гасан бек Меликов (О Гасан бек, мудрый учитель)», «Ответ Мохсуне» и «Маснави – Совет сыну (Мирджафара)». Исследование показывает, что Ширвани считал неграмотность величайшим бедствием общества и представлял науку и образование как ключ к прогрессу. В его педагогических воззрениях особое внимание уделяется всеобщности образования, единству науки и образования, социальной роли учителя и школы, а также изучению языков и мультикультурных ценностей. Эти идеи, имея большое значение для азербайджанского общества XIX века, сохраняют свою актуальность и в современной системе образования. В статье подчёркивается важность возрождения педагогического наследия Сеида Азима Ширвани в связи с его 190-летним юбилеем.

**Ключевые слова:** Сеид Азим Ширвани, педагогическая мысль, просвещение, наука и грамотность, воспитание, мультикультурализм, азербайджанское педагогическое наследие.

**Giriş/ Introduction**

XIX əsr Azərbaycan maarifçiliyinin görkəmli nümayəndələrindən biri Seyid Əzim Şirvani olmuşdur. O yalnız bir şair deyil, həm də müəllim, ictimai xadim və maarifçilik ideyalarının daşıyıcısı kimi pedaqoji fikir tariximizdə mühüm yer tutur. Dövrün ictimai-siyasi şəraiti, xüsusilə çar Rusiyası tərkibində olan Azərbaycan cəmiyyətində maarif və təhsil problemləri Seyid Əzimin yaradıcılığında əsas istiqamətlərdən birinə çevrilmişdir.

Şairin pedaqoji irsi əsasən şeirlərində, məsnəvilərində və məktublarında öz əksini tapmışdır. O, şeirlərində elm və savadın əhəmiyyətini, savadsızlığın zərərlərini, müəllim və məktəbin cəmiyyətdəki rolunu, ailə tərbiyəsinin əsaslarını vurğulamışdır [Şirvani, I c., 2005, II c., 2005]. Bu baxımdan Seyid Əzim Şirvaninin irsi Azərbaycan pedaqoji fikrinin inkişafında mühüm mərhələ hesab olunur.

Seyid Əzim Şirvaninin həmçinin pedaqoji fəaliyyəti ilə də diqqət çəkmişdir. Onun Şamaxıda açdığı məktəb, orada tətbiq etdiyi yeni təlim üsulları və şagirdlərə münasibəti maarifçilik hərəkatının praktik nümunəsi kimi qiymətləndirilir [İsmayılova, 2020]. Müasir tədqiqatlarda da qeyd olunduğu kimi, şairin pedaqoji görüşləri bugünkü təhsil dəyərləri ilə səsləşir və çoxmədəniyyətli, humanist yanaşmalarla zəngindir [Soltangızı, 2025; Məmmədova, 2019].

**Ədəbiyyat icmalı.** Seyid Əzim Şirvani haqqında araşdırmalar əsasən iki istiqamətdə aparılmışdır: onun ədəbi-bədii yaradıcılığı və maarifçi-pedaqoji fəaliyyəti. İlk tədqiqatçılar sırasında F.Köçərlinin adını çəkmək vacibdir. O, 1920-ci illərdə qələmə aldığı "Azərbaycan ədəbiyyatı tarixi" əsərində Seyid Əzimi Azərbaycan maarifçiliyinin qabaqcıl nümayəndəsi kimi dəyərləndirmişdir [Köçərli, 2005:31]. Sonrakı illərdə Ə.Hüseynzadə, Ə.Əliyev, Y.Quliyev və Y.Qarayev kimi alimlər şairin fəaliyyətini həm ədəbiyyat, həm də pedaqoji fikir kontekstində araşdırmış, onun XIX əsr maarifçilik hərəkatındakı yerini geniş təhlil etmişlər. Bu müəlliflərin əsərlərində Seyid Əzim Şirvani Azərbaycan pedaqoji fikir tarixinin formalaşmasında mühüm mərhələ kimi təqdim olunur.

Müasir dövr tədqiqatlarda isə Seyid Əzimin yaradıcılığının yeni aspektləri işıqlandırılır. K.Aslan onun bədii irsində maarifçilik ideyalarının geniş yer aldığını göstərir. F.Məmmədova şairin iştirak etdiyi ədəbi məclislər və maarifçi

cəmiyyətlər vasitəsilə Azərbaycan cəmiyyətində tərəqqi ideyalarının yayılmasında oynadığı rolu vurğulayır. N.Məmmədova isə Seyid Əzimin poeziyasında pedaqoji ideyaların sistemli təhlilini apararaq, bu ideyaların müasir pedaqoji fikirlə səsləşməsini göstərmişdir. Digər bir mühüm mənbədə – M.İsmayılovanın məqaləsində isə şairin məktəb və təhsil problemlərinə dair görüşləri araşdırılmış və onun pedaqoji fəaliyyəti praktik nümunələrlə işıqlandırılmışdır. P.Soltanqızı (2025) onun yaradıcılığında maarifçilik və multikultural dəyərlərin əhəmiyyətini vurğulayaraq, bu ideyaların qlobal humanist yanaşmalarla səsləşdiyini göstərir. Bu yanaşma Seyid Əzimin pedaqoji görüşlərinin yalnız XIX əsrin deyil, həm də müasir dövrün təhsil diskursu üçün əhəmiyyətli olduğunu təsdiqləyir.

Beləliklə, ədəbiyyat icmalı göstərir ki, Seyid Əzim Şirvaninin pedaqoji irsi həm klassik tədqiqatlarda, həm də müasir elmi diskursda müxtəlif aspektlərdən işıqlandırılmışdır. Onun maarifçi görüşləri Azərbaycan pedaqoji fikrinin inkişafı baxımından mühüm mərhələ təşkil edir və bu gün də aktual elmi-tədris dəyərə malikdir.

**Əsas hissə.** Ədəbi və elmi mənbələrin işığında aydın olur ki, Seyid Əzim Şirvani pedaqoji ideyalarını ən çox şeir dili ilə ifadə etmişdir. Buna görə də əsas hissədə biz onun seçilmiş məsnəvilərini təhlil etməklə şairin maarifçilik görüşlərinin əsas istiqamətlərini üzə çıxarmağa çalışacağıq.

*“Həsən bəy Məlikova (Ey Həsən bəy, müəllimi-dana)”*

Seyid Əzim Şirvani bu məsnəvisində maarifçilik ideyalarını birbaşa ictimaiyyətə və ziyalılara ünvanlayır. Əsər həm Həsən bəy Zərdabi şəxsiyyətinə hörmət, həm də Azərbaycan maarifçilərinin ortaq mübarizəsinə çağırış kimi dəyərləndirilə bilər. Şairin müraciət forması “Ey Həsənbəy, müəllimi-dana!” misrası ilə başlayır ki, burada müəllimin cəmiyyətdəki rolu xüsusi vurğulanır [Şirvani, II c., 2005:118].

Məsnəvinin əsas ideyası cəhalətin milli inkişafın qarşısını kəsməsi və bu dərdin yalnız elm vasitəsilə müalicə olunmasıdır. Şair qeyd edir ki, xalqın başlıca bəlası nadanlıqdır:

*Bir bəladır bu dərdi-nadanı*
*Ki, onun elm olubdu dərmanı* [Şirvani, II c., 2005:118].

Bu bənd pedaqoji baxımdan maarifçiliyin əsas tezisini əks etdirir: cahilliyin yeganə müalicəsi təhsildir. Ə.Hüseynzadənin də vurğuladığı kimi, XIX əsr maarifçiləri üçün elm sadəcə bilik deyil, həm də milli dirçəlişin əsası idi.

Əsərdə həmçinin din və məzhəb çəkişmələrinin elm qarşısında əhəmiyyətsizliyi göstərilir. Şair yazır ki, şiə-sünni qarşıdurması milləti zəiflətmiş, digər xalqlar isə elm vasitəsilə tərəqqi etmişdir. Bu, pedaqoji baxımdan gənclərin dini fanatizmə deyil, rasional elmə yönləndirilməsinin vacibliyini ortaya qoyur.

Seyid Əzim elm sahəsində Həsən bəy Zərdabini nümunə göstərir və onun şəxsi zəhməti ilə yüksək məqama çatmasını gənclərə örnək kimi təqdim edir:

*Oxuyub elm eylədi hasil,*
*Ta ki oldu bu nemətə vasi*l [Şirvani, II c., 2005:120].

Bu sitat pedaqoji ideya baxımından "uğurun açarı təhsil və zəhmətdir" prinsipini ifadə edir. Ə.Əliyev də qeyd edir ki, Seyid Əzimin tərbiyəvi görüşlərində fərdi zəhmət və ömürboyu öyrənmə mühüm yer tutur [Əliyev, 1974].

Nəhayət, şair Şirvanda açılmış məktəblərin fəaliyyətindən bəhs edir, burada rus, türk, fars və ərəb dillərinin tədris olunduğunu bildirir. Bu fakt həm maarifçilik, həm də multikultural pedaqoji dəyərlərin təşviqi baxımından əhəmiyyətlidir [Soltangızı, 2025].

*"Həsənbəy Məlikova (Möhsünə cavab)".* Bu məsnəvi Seyid Əzim Şirvaninin pedaqoji irsində mühüm yer tutur. Əsər Həsən bəy Zərdabinin maarifçi ideyalarına cavab olaraq yazılmışdır və xalqın qəflət yuxusundan ayılmasına, elm və maarifə yönəlməsinə çağırışdır. Şair Möhsünü "millətin qeyrətini çəkən qardaş" adlandıraraq maarifçi ziyalının rolunu yüksək qiymətləndirir [Şirvani, II c., 2005:122].

Əsərdə əsas pedaqoji ideya insanın tərbiyə vasitəsilə kamilləşməsi fikridir. Şair yazır:

*Filhəqiqət dirəxti-nakamil,*
*Tərbiyət feyzinə olur şamil.*
*Növi-insan deyil ağacdan kəm,*
*Qabili-tərbiyətdi hər adəm* [Şirvani, II c., 2005:123].

Bu misralar maarifçi pedaqoji prinsipin – hər bir insanın tərbiyəyə qabil olması – aydın ifadəsidir. Ə.Əliyevin vurğuladığı kimi, XIX əsr Azərbaycan maarifçiləri tərbiyəni cəmiyyətin tərəqqisi üçün ən güclü vasitə hesab edirdilər.

Şair həmçinin elm və tərbiyənin vəhdətini göstərir. Onun fikrincə, elmsiz insan hünərsizdir, elmi-tərbiyədən uzaq bilik isə bəhrəsizdir. Bu yanaşma müasir pedaqogikada da qəbul edilən "təhsil + tərbiyə = şəxsiyyətin formalaşması" modelinə uyğun gəlir [Məmmədova, 2019].

Seyid Əzim yalnız dini elmlə kifayətlənməyi tənqid edir. O qeyd edir ki, "elm ancaq 'Nəhv' ilə 'Sərf' deyil", yəni mədrəsə təhsili məhduddur, müasir elmlərə ehtiyac vardır [Şirvani, II c., 2005:123]. Bu fikirlər M.F. Axundzadə ilə səsləşir və maarifçilik hərəkatının ümumi xəttini əks etdirir. Namazov və Quliyev də göstərirlər ki, Seyid Əzim klassik dini təhsilin məhdudiyyətlərini aşaraq, dünyəvi biliklərin tədrisini vacib hesab edirdi.

Əsərdə milli maarifin vəziyyəti ilə bağlı kəskin tənqidlər də yer alır. Şair kitabların və tədris resurslarının çatışmazlığını göstərərək yazır ki, "*bizdə o günə kitablar əlan / ki, ola öz lisanımızda bəyan*" [Şirvani, II c., 2005:123]. Bu, ana dilində tədrisin olmamasının pedaqoji problem kimi qabardılmasının açıq nümunəsidir.

Beləliklə, bu məsnəvi Seyid Əzim Şirvaninin pedaqoji görüşlərini üç əsas istiqamətdə ümumiləşdirir:

1. Tərbiyənin universallığı və insanın kamilləşmə potensialı;
2. Elm və tərbiyənin ayrılmaz vəhdəti;
3. Milli məktəbin və ana dilində təhsilin zəruriliyi.

Bu baxışlar Azərbaycan maarifçiliyində yeni bir mərhələ açmış, sonrakı pedaqoji fikir tarixində mühüm iz buraxmışdır.

*"Məsnəvi – Oğluna nəsihət (Mircəfərə)".* Bu məsnəvi Seyid Əzim Şirvaninin pedaqoji görüşlərinin ən canlı ifadələrindən biridir. Şair övladına ünvanladığı bu əsərdə elm və təhsilin insanın kamilləşməsində əsas vasitə olduğunu göstərir. O, oğluna müraciətlə yazır:

*Ey oğul, bu dəlili-bişəkdir,*
*Adəmi-bisavad eşşəkdir* [Şirvani, I c., 2005:130].

Bu misralar şairin elm və savadın zəruriliyi barədə radikal mövqeyini əks etdirir. Elm yalnız fərdi xoşbəxtlik deyil, həm də cəmiyyətin tərəqqisi üçün açar hesab edilir.

Əsərdə dillərin öyrənilməsinə xüsusi önəm verilir. Şair oğluna rus dilini mütləq bilməyi tövsiyə edir, çünki dövrün ictimai-siyasi və mədəni həyatı bunu zəruri edirdi. Bu fikir Azərbaycan maarifçiliyində multikultural pedaqoji yanaşmanın başlanğıcı kimi qiymətləndirilə bilər [Soltanqızı, 2025]. Seyid Əzim dillərin müqayisəsini "Qurani-Kərim"dəki peyğəmbərlərin müxtəlif dillərdə vəhy alması ilə əsaslandıraraq, dillərin hamısının bəşəri dəyər daşıdığını vurğulayır:

*Hər lisan haq yanında zibadır* [Şirvani, I c., 2005:131].

Bu baxış pedaqoji kontekstdə tolerantlıq və mədəniyyətlərarası öyrənmə

prinsipinə uyğun gəlir.

Şair həm də oğluna ağıl və düşüncəni rəhbər tutmağı tövsiyə edir:

*Əqli tut, ol gözəl rəfiq ilə get* [Şirvani, I c., 2005:129].

Bu, maarifçiliyin rasionalizmə əsaslanan yanaşmasının nümunəsidir. Namazov və Əhmədli də Seyid Əzimin əsərlərində rasional və dini biliklərin vəhdətini göstərirlər.

Beləliklə, "Oğluna nəsihət" məsnəvisi üç əsas pedaqoji ideyanı özündə birləşdirir:

1. Elm və savadın insan həyatındakı həlledici rolu;
2. Xarici dillərin, xüsusən rus dilinin öyrənilməsinin zəruriliyi;
3. Ağıl və rasional düşüncənin tərbiyədə əsas prinsip kimi qəbul olunması.

Bu fikirlər Seyid Əzim Şirvaninin pedaqoji irsini universal dəyərlərlə zənginləşdirir və onun ideyalarının bu gün də aktual olduğunu təsdiq edir.

Seyid Əzim Şirvaninin pedaqoji görüşləri XIX əsr Azərbaycan maarifçiliyinin əsas prinsiplərini əks etdirir. Onun şeirlərindəki ideyalar həm fərdi tərbiyə, həm ictimai tərəqqi, həm də milli məktəb məsələlərinə yönəlmişdir.

1. XIX əsr Azərbaycan cəmiyyəti üçün əhəmiyyəti

Şairin şeirlərində savadsızlıq sərt şəkildə tənqid olunur, elm və maarif isə xalqın xilas yolu kimi təqdim edilir. Bu, həmin dövrdə müsəlman Şərqində yayılmış maarifçilik hərəkatının ümumi ideyaları ilə səsləşirdi. Şamaxıda məktəb açılması ilə bağlı yazıları göstərir ki, o, maarifi yalnız nəzəri şəkildə deyil, həm də praktiki fəaliyyətlə dəstəkləyirdi [İsmayılova, 2020:127].

2. Elm və tərbiyənin vəhdəti

Şairin pedaqoji baxışlarında elm və tərbiyə bir-birindən ayrılmazdır. Onun "Möhsünə cavab" məsnəvisində hər bir insanın tərbiyəyə qabil olduğu fikri səslənir: insan ağac kimidir, tərbiyə ilə kamilləşir. Bu ideya XIX əsr Azərbaycan pedaqoji fikrində mühüm dönüş nöqtəsi olmuşdur.

3. Multikultural və humanist dəyərlər

Seyid Əzim dillərin bərabərliyini müdafiə etmiş, müxtəlif dillərin öyrənilməsini tərəqqi üçün vacib saymışdır. Onun rus dilinin öyrənilməsini zəruri hesab etməsi pedaqoji baxımdan həm praqmatik, həm də multikultural yanaşmanın nümunəsidir. Bu, həm də dini fanatizmdən uzaq, universal təhsil modelinə çağırış idi.

4. Müasir pedaqogika ilə əlaqə

Şairin pedaqoji ideyaları bu gün də öz aktuallığını qoruyur. Onun elmə və rasional düşüncəyə əsaslanan tərbiyə prinsipləri müasir təhsilin əsas dəyərləri – humanizm, multikulturalizm və ömürboyu öyrənmə – ilə səsləşir. Bu baxımdan Seyid Əzim Şirvaninin irsi yalnız milli pedaqoji fikir tarixi üçün deyil, həm də qlobal pedaqoji diskurs üçün dəyərli mənbədir.

**Nəticə/Conclusion**

Seyid Əzim Şirvaninin pedaqoji irsi XIX əsr Azərbaycan maarifçilik hərəkatının ideya əsaslarını formalaşdırmaqla yanaşı, müasir pedaqogika üçün də dəyərli istiqamətlər təqdim edir. Şirvani savadsızlığı cəmiyyətin ən böyük bəlası hesab etmiş, maarifi isə milli tərəqqinin yeganə açarı kimi təqdim etmişdir. Bu ideya müasir pedaqogikada ömürboyu təhsil, bilik cəmiyyətinin qurulması və insan kapitalının inkişafı prinsipləri ilə səsləşir.

Şairin fikrincə, elmi biliklər yalnız mənəvi-mədəni tərbiyə ilə tamamlandıqda səmərəli olur. Bu yanaşma müasir pedaqoji nəzəriyyələrdə (humanist pedaqogika, konstruktivizm) şəxsin intellektual, sosial və mənəvi inkişafının vəhdətini xatırladır.

Şirvani hər bir insanın tərbiyəyə qabil olduğunu vurğulayaraq, fərdi inkişaf potensialını ön plana çəkmişdir. Bu prinsip müasir inklüziv təhsil fəlsəfəsi ilə uyğunluq təşkil edir və bütün fərdlərin təhsil hüququnu legitimləşdirir.

Dillərin öyrənilməsinə verdiyi üstünlük, dini-məzhəbi fanatizmin tənqidi və müxtəlif mədəniyyətlərə açıq münasibəti ilə Şirvani universal dəyərlərə əsaslanan pedaqoji model təklif etmişdir. Bu, bu günün qlobal təhsil sistemində vacib hesab olunan tolerantlıq, mədəniyyətlərarası öyrənmə və qlobal vətəndaşlıq ideyaları ilə səsləşir.

Şairin şeirlərində müəllim yalnız bilik ötürən deyil, həm də milli oyanışın, ictimai tərəqqinin aparıcı fiquru kimi təqdim olunur. Bu baxış müasir dövrdə müəllim peşəsinin sosial statusunun yüksəldilməsi, məktəbin cəmiyyətin transformasiya mərkəzi kimi rolu ilə səsləşir.

Nəticə etibarilə, Seyid Əzim Şirvaninin pedaqoji görüşləri yalnız XIX əsr Azərbaycan maarifçilik ənənələrinin dəyərli nümunəsi deyil, həm də müasir təhsil nəzəriyyəsi və praktikası üçün aktual mənbədir. Onun ideyalarının yenidən elmi dövriyyəyə gətirilməsi, 190 illik yubiley kontekstində pedaqoji diskursda geniş işıqlandırılması və müasir təhsil modelləri ilə müqayisəli şəkildə araşdırılması həm milli pedaqoji irsin zənginləşdirilməsinə, həm də qlobal pedaqoji təcrübəyə inteqrasiyasına mühüm töhfə verə bilər.

## ƏDƏBİYYAT/REFERENCES

1. Aslan, K. (2008). Seyid Əzim Şirvaninin bədii irsində maarifçilik ideyaları. Kitabxanaşünaslıq və biblioqrafiya, (2), − 45-52.

2. Əhmədli, R. (2012). Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri. − Bakı: "Elm". – 195 s.

3. Göyüşov, Z. (2005). Azərbaycan maarifçilərinin etik görüşləri. − Bakı: "Elm". – 236 s.

4. İsmayılova, M. (2020). Seyid Əzim Şirvaninin məktəb və təhsil problemləri // "İpək Yolu", − № 4. − s.127-133.

5. Köçərli F. (2005). Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild. – Bakı: "AVRASİYA PRESS". − 464 s.

6. Məmmədova, F. (2019). Literary assemblies and enlightenment societies in Azerbaijan // Journal of Azerbaijani Studies. − 21(3), − s.55-67.

7. Məmmədova, N. (2019). Seyid Əzim Şirvani poeziyasında pedaqoji ideyalar // "Pedaqoji araşdırmalar" jurnalı. − (2), s. 87-95.

8. Namazov, Q. (2000). Seyid Əzim Şirvani: həyatı və yaradıcılığı. − Bakı: "Şərq-Qərb". − 399 s.

9. Şirvani, S. (2005). Seçilmiş əsərləri I cild. − Bakı: Avrasiya Press. – 400 s.

10. Şirvani, S. (2005). Seçilmiş əsərləri II cild. − Bakı: Avrasiya Press. – 384 s.

11. Şirvani, S. (2005). Seçilmiş əsərləri. III cild. − Bakı: "Avrasiya Press". – 312 s.

12. Soltanqızı, P. (2025). Seyid Əzim Şirvaninin yaradıcılığında maarifçilik ideyaları və multikultural dəyərlər // "Azərbaycan dili və ədəbiyyat tədrisi". − 71(2), − s.66-75.

**Məqalə tarixçəsi**
*Daxil olub* *04.09.2025*
*Qəbul edilib* *15.09.2025*
*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*